# Əbədi ömrün izləri



**Belə ki, şairlər, bəstəkarlar, rəssamlar, heykəltəraşlar Üzeyir bəyə əsərlər ithaf edirlər. Üzeyir bəyin adına mükafatlar təsis olunur, ölkəmizin müxtəlif bölgələrində onun adına küçə və parklar salınır, müxtəlif elm və təhsil ocaqları, musiqi kollektivləri Üzeyir Hacıbəylinin adını daşıyır.**

Üzeyir Hacıbəyli ölməz musiqisi, xeyirxah əməlləri, mükəmməl elmi, mədəniyyətimizə bəxş etdiyi əvəzsiz töhfələri ilə əbədiyaşardır. Bu əbədiyaşarlığın izləri Azərbaycan elm və incəsənətinin, mədəniyyətinin müxtəlif sahələrində də görünməkdədir. Belə ki, şairlər, bəstəkarlar, rəssamlar, heykəltəraşlar Üzeyir bəyə əsərlər ithaf edirlər. Üzeyir bəyin adına mükafatlar təsis olunur, ölkəmizin müxtəlif bölgələrində onun adına küçə və parklar salınır, müxtəlif elm və təhsil ocaqları, musiqi kollektivləri Üzeyir Hacıbəylinin adını daşıyır. Eləcə də musiqi bayramı və Beynəlxalq Üzeyir Hacıbəyli Festivalı da bu qəbildəndir. Hətta elə məkanlar var ki, vaxtilə Üzeyir bəy orada işləyib, indi isə orada başqa bir müəssisə yerləşir. Amma, buna baxmayaraq həmin məkanda Üzeyir bəyə aid guşə qorunub saxlanılır. Deməli, əbədiyaşar ömrün izləri də əbədiyaşardır. Bu əbədiyaşarlığı özündə əks etdirən tarixin səhifələrinə nəzər salırıq. Belə ki, Üzeyir Hacıbəylinin adı ilə bağlı olanlardan bəhs edəcəyik.




Üzeyir Hacıbəyli 1905-ci ildən Bakıya köçmüş, burada pedaqoji və yaradıcılıq fəaliyyəti ilə məşğul olmuşdur. Bakıya köçdüyü ilk vaxtlarda "Təbriz" mehmanxanasında (indiki M.Ə.Sabir bağının Gənclər meydanı tərəfindəki üçmərtəbəli bina indiyədək qalmaqdadır) yaşamış və Bibiheybət kənd məktəbində müəllim işləmişdir. Həmin məktəb yuxarıda şəkli verilən indiki 51 saylı orta məktəbdir. Bir vaxtlar bu məktəb Üzeyir bəyin adını daşıyıb. Hal-hazırda isə dahi sənətkarın ruhuna sevgi və hörmət əlaməti olaraq məktəbdə onun guşəsi qorunub saxlanılır. Məktəbin direktoru Tərlan xanım Bayramovanın dediklərindən bəlli olur ki, məktəbdə hər il 18 sent-





yabr Milli Musiqi günündə Üzeyir bəyin həyat və yaradıcılığına dair orta məktəb müəllim və şagirdlərindən ibarət maraqlı konsert proqramı ilə çıxışları təşkil olunur. Xüsusilə də Tərlan xanım Bayramova qeyd edir ki, təşkil olunmuş tədbirlərdə şagirdlərin ifasında bəstəkarın Azərbaycan Respublikasının Dövlət himni və "Koroğlu" operasının uvertürasının sədaları altında məktəbin foyesində hazırlanmış Üzeyir Hacıbəylinin büstünün (heykəltəraş Teyyub Yusifov) qarşısında xüsusi zövqlə ifaları səsləndirilir. Məhz bu artıq bir ənənəyə çevrilərək hər il davam etdirilir və Üzeyir Hacıbəyli irsinə, ruhuna bir hörmət əlaməti olaraq qiymətləndirilir. Məktəbin keçirdiyi tədbirlər vaxtaşırı olaraq müxtəlif dövri mətbuatda və televiziya ekranlarında da işıqlandırılıb.

